# BƏLƏDİYYƏ HƏYATI

№13 (320) www.belediyye.info / e-mail: belediyye2015@gmail.com

İCTİMAİ - SİYASİ QƏZET

10 İyul 2015-ci il

Qəzet 2003-cü ildən nəşr edilir


# BAKIDA İLK AVROPA OYUNLARI UĞURLA BAŞA ÇATDI

**İyunun 29-da birinci Avropa Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri, Azərbaycan idman ictimaiyyətinin nümayəndələri və Oyunların təşkilində xidmətləri olan xarici tərəfdaşlarla görüş keçirilib.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.**

**Dövlətimizin başçısı mərasimdə nitq söylədi.**




### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

-Hörmətli Avropa Olimpiya Komitələrinin prezidenti cənab Patrik Hikki.

Hörmətli xanımlar və cənablar.

Əziz idmançılar.

Bakıda birinci Avropa Oyunları uğurla başa çatıb. Bu münasibətlə mən sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Birinci Avropa Oyunları ölkəmiz və Avropa üçün tarixi hadisədir. Ölkəmiz üçün ona görə tarixi hadisədir ki, bu günə qədər Azərbaycanda bu səviyyədə beynəlxalq idman yarışı keçirilməmişdir. Avropa üçün isə ona görə ki, Avropada başqa qitələrdən fərqli olaraq heç vaxt qitə oyunları keçirilməmişdir.

2012-ci ilin dekabrında Avropa Olimpiya Komitələrinin qərarı ilə birinci Oyunların keçirilməsi qərarı qəbul edilmişdir və bu şərəfli missiya bizim üzərimizə düşmüşdür. Bu qərara görə, bu qərarın qəbul edilməsində iştirak etmiş bütün insanlara və ilk növbədə Avropa Olimpiya Komitələrinin prezidenti cənab Patrik Hikkiyə öz adımdan və bütün Azərbaycan xalqı adından bir daha minnətdarlığımı bildirmək istəyirəm. Məhz cənab Patrik Hikkinin təşəbbüsü ilə bu Oyunlar baş tutdu. Bu Oyunların keçirilməsində iştirak etmiş bütün insanlara bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu qərardan sonra Azərbaycanda gərgin iş başlamışdır. Təşkilat Komitəsi, Beynəlxalq Əməliyyat Komitəsi yaradılmışdır. Hamımız yaxşı dərk edirdik ki, bu Oyunları yüksək səviyyədə keçirmək üçün gərək bütün ictimaiyyət, bütün Azərbaycan vətəndaşları buna fəal dəstək olsunlar. Belə də oldu. Məşəlin qarşılanması mərasimlərində iki milyona yaxın Azərbaycan vətəndaşı iştirak etmişdir. Bu böyük ictimai dəstək bizə güc və inam verdi ki, biz bu Oyunları ən yüksək səviyyədə keçirək.

Yadımdadır, qərar qəbul olunandan sonra mən xalqa müraciət etdim və xalqı təbrik etdim. Eyni zamanda, dedim ki, biz çalışacağıq ki, bu Oyunları ən yüksək səviyyədə keçirək. Şadam ki, bu, belə də oldu. Doğrudan da birinci Avropa Oyunları tarixdə həm də ona görə qalacaq ki, bu Oyunlar ən yüksək dünya səviyyəsində keçirilmişdir.

Bu Oyunların keçirilməsi üçün cəmi iki il yarım vaxtımız var idi. Təsəvvür etmək çətin deyil ki, biz nə qədər gərgin iş gördük. Gərgin şəraitdə, vaxt azlığı. Əlbəttə ki, bu böyük məsuliyyət bizim üzərimizdə idi. Avropa Oyunlarının standartları o vaxt mövcud deyildi. Əslində, Oyunların standartlarını biz birlikdə Azərbaycanda yaratdıq və bu, ən yüksək standartlardır.

Məşəlin alovlandırılması mərasimi də çox yaddaqalan oldu. Mən bir daha Avropa Olimpiya Komitələrinin prezidenti cənab Hikkiyə minnətdaram ki, onun və Avropa Olimpiya Komitələrinin qərarı ilə gələcək Oyunların məşəli məhz Azərbaycanda, Bakıda Atəşgah məbədində yandırılacaqdır.

Oyunların hazırlanmasında Beynəlxalq Əməliyyat Komitəsinin - BEGOC-un rolunu yüksək qiymətləndirirəm. Orada işləyən peşəkar insanlar əlbəttə ki, öz təcrübələrini, biliklərini Azərbaycana gətirmişlər, bizimlə bölüşmüşlər. Onlarsız bu Oyunları bu səviyyədə keçirmək mümkün olmayacaqdı.

Bilirəm ki, onlar da bu aylar, illər ərzində Azərbaycanı ürəkdən sevmişlər. Azərbaycanın bütün imkanlarını, xalqın əhval-ruhiyyəsini və ölkəmizdə gedən müsbət prosesləri görərək onlar bizim xalqımıza, dövlətimizə çox bağlı oldular. Əminəm ki, bu xatirələr onların qəlbindən heç vaxt silinməyəcək. Çünki onların həyatlarının bir hissəsi Azərbaycanda keçibdir. Əminəm ki, biz gələcəkdə də onlarla tez-tez görüşəcəyik.

Könüllülərin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Oyunların keçirilməsinin yükünün böyük hissəsi onların üzərinə düşmüşdür. Könüllülər bir daha onu göstərdi ki, ölkəmizin çox böyük potensialı, insan kapitalı var. Mən 2003-cü ildə Prezident kimi fəaliyyətə təzə başlayanda demişdim ki, bizim əsas vəzifəmiz iqtisadi kapitalı, daha doğrusu, "qara qızıl"ı insan kapitalına çevirməkdir. Bugünkü gənclər müstəqillik dövründə böyümüş, tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir. İyirmi minə yaxın könüllü, - onların böyük əksəriyyəti yerli uşaqlardır, insanlardır, gənclərdir, - gecə-gündüz çalışırdılar. Onlar gecə-gündüz peşəkarlıqla, ustalıqla, məharətlə çalışaraq idmançılara, qonaqlara böyük mədəniyyət, hörmət, Azərbaycan xalqına xas olan qonaqpərvərlik və mehribanlıq göstərmişlər. Bu günlər ərzində xarici qonaqlarla təmaslar əsnasında könüllülər haqqında daim bu xoş sözləri eşidirəm. Doğrudan da bizim gələcəyimiz etibarlı əllərdədir. Könüllülər bu Oyunlardan sonra əminəm ki, cəmiyyətdə öz layiqli yerlərini tutacaqlar. Onlar bizim gələcəyimizdir. Azərbaycanın gələcək inkişafı gənclərin əlində olmalıdır. Gənclər bilikli, savadlı, peşəkar və vətənpərvər olmalıdırlar. Necə ki, bizim könüllülərimiz peşəkar, bilikli və vətənpərvərdirlər.

Mən bu gün Təşkilat Komitəsinin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Çünki Təşkilat Komitəsinin çox böyük və gərgin fəaliyyəti olmuşdur. Təbii ki, ictimaiyyət tam şəkildə bu fəaliyyətin nədən ibarət olduğunu bilə bilməz. Çünki Təşkilat Komitəsinin tədbirləri mütəmadi qaydada keçirilirdi. Ancaq ictimaiyyətə o qədər də geniş məlumatlar verilmirdi. Hər bir xırda məsələ üzrə bütün işlər ən yüksək səviyyədə görülmüşdü və məhz buna görə Oyunların keçirilməsində heç bir problem yaşanmadı.

Təşkilat Komitəsinə rəhbərlik etmiş Mehriban Əliyevanın böyük fəaliyyətini xüsusilə yüksək qiymətləndirirəm. O, bu Oyunların keçirilməsinə çox böyük töhfə vermişdir. Deyə bilərəm ki, bu Oyunların bu səviyyədə keçirilməsinə öz canını qoymuşdur. Mən Təşkilat Komitəsinin tərkibini müəyyən edərkən tam əmin idim ki, bu tərkibdə bu Komitə ən yüksək nəticə göstərə bilər. Çünki burada həm təcrübə, həm peşəkarlıq və ən önəmlisi xalqa, dövlətə sevgi, məhəbbət var idi və var. Bu, ümumiyyətlə ölkəmizin əldə etdiyi uğurların əsas şərtidir. Bəzən məndən soruşurlar ki, Azərbaycan sürətlə inkişaf edir, - baxmayaraq bölgədə, dünyada, bizim qitədə yaşanan proseslər o qədər də ürəkaçan deyil, - nədir bunun sirri?

Bu barədə çox danışmaq olar. Ancaq mən hesab edirəm əsas məsələ ondan ibarətdir ki, biz dövlətimizi, xalqımızı hər şeydən çox sevirik. Bu məhəbbət, bu vətənpərvərlik, bu peşəkarlıq və işimizə sədaqət əlbəttə, imkan verir ki, Azərbaycan sürətlə inkişaf etsin və bizim gələcəkdə də çox böyük qələbələrimiz olacaqdır.

Əlbəttə, bu gün mən idmançıların uğurlarını, qələbələrini xüsusilə qeyd etmək istəyirəm. Təbii ki, biz bu Oyunları yüksək səviyyədə keçirməli idik və keçirdik. Bu, bir daha ölkəmizin potensialını, gücünü göstərdi. Biz bu potensialı əlbəttə ki, bilirdik. Bu potensialı biz yaratmışıq. Cəmi 24 il ərzində Azərbaycan elə zirvələrə qalxıb ki, bəzi ölkələrə bu səviyyəyə qalxmaq üçün bəlkə yüzilliklər lazımdır. Bu Oyunlar sadəcə olaraq bizə imkan verdi ki, bu potensialı dünyaya, Avropaya, eləcə də öz ictimaiyyətimizə nümayiş etdirək. Həm insani potensial, həm dövlətimizin iqtisadi potensialı, həm cəmiyyətdə hökm sürən xoş əhval-ruhiyyə, xalqla iqtidar arasındakı birlik, milli ideyalar ətrafında birləşməyimiz, milli həmrəylik – məhz budur bizim uğurlarımızın əsas şərtləri.

Bu Oyunlar imkan verdi ki, bizi özümüzü göstərək. Bizi istəməyən qüvvələr bəzi hallarda bunu bizə irad tuturdular ki, Azərbaycan Oyunları keçirməklə özünü göstərmək istəyir. Bu, təbiidir. Əlbəttə, hər bir ölkə özünü göstərmək istəyir. İnkişaf etmiş ölkələr, hansılar ki, dəfələrlə bu səviyyəli tədbirləri keçirmişlər. Onlar da özlərini göstərmək istəmişlər. Yəni, burada heç bir qəbahət yoxdur. Bəli, bizim göstərə biləcəyimiz nümunələr həddindən artıq çoxdur. Biz Azərbaycanı dünyaya müasir, dinamik, demokratik, inkişaf edən, öz mədəniyyətinə, tarixinə bağlı olan xalq kimi, dövlət kimi göstərmişik. Bu Oyunlar cəmiyyətdə nadir bir əhval-ruhiyyə yaratdı. Bu, əvvəllər də var idi. Yəni, cəmiyyətimiz milli ideyalar, milli maraqlar uğrunda çox fəal hərəkət edir. Ancaq bu Oyunlar xalqımızı bir daha birləşdirdi. Bir daha bizi qürurlandırdı ki, görün, biz nəyə qadirik.

İdmançıların uğurlarına qayıdarkən bu, xüsusilə böyük əhəmiyyət daşıyır. Çünki onların qələbələri bu Oyunları daha da böyük zirvəyə qaldırdı. Mən tam əminəm ki, bəlkə burada oturanlar və ümumiyyətlə ictimaiyyət arasında yəqin müxtəlif fərziyyələr var idi ki, bizim komandamız neçənci yeri tutacaq. Amma bəlkə heç kim inanmırdı ki, bu, ikinci yer olacaqdır. Bu, tarixi qələbədir. Azərbaycan idmanının, Azərbaycan dövlətinin qələbəsidir. Əziz idmançılar, mən sizi öpürəm, bağrıma basıram. Sağ olun.

Bu günlər ərzində hamımız yəqin ki, bir neçə dəfə kövrəldik. Hamımızın elə unudulmaz anları olmuşdur ki, bunu sözlə təsvir etmək çətindir. Qələbə sevinci, qürur hissi, idmançılarımızın rəşadəti, gücü, xalqımızın birliyi, bütün bunlar heç vaxt yadımızdan çıxmayacaq.

Azərbaycan bu gün zirvədədir. Azərbaycan bu gün müstəqil, inkişafda olan güclü dövlət kimi uğurla irəli gedir. Bizim siyasi, iqtisadi sahələrdə, diplomatik arenalarda, idman yarışlarında böyük qələbələrimiz var. Biz haqlı olaraq, bununla fəxr edirik. Fəxr edirik ki, biz Azərbaycan vətəndaşıyıq. Biz fəxr edirik ki, cəmi 24 il ərzində Azərbaycan xalqının istedadı, zəhməti hesabına, düşünülmüş siyasət hesabına güclü dövlət qurmuşuq.

İdman hər bir ölkənin ümumi inkişafını göstərir. Əgər idmanda böyük nəticələri əldə edən ölkələrin siyahısına baxsanız,- bu Oyunlar da bunun bariz nümunəsidir,- görərsiniz ki, birinci sıralarda ancaq hərtərəfli cəhətdən inkişaf etmiş ölkələrdir. Çünki kasıb, inkişaf etməyən, geridə qalmış ölkələrdə çox nadir hallarda böyük idman nəticələri olur.

İdmanda əldə edilən uğurlar müəyyən bir baza əsasında yaranır. Bu bazanı biz yaratmışıq. Artıq neçə ildir ki, biz idmanın inkişafı ilə çox ciddi məşğul oluruq. İdmançılar, klublar, federasiyalar, idman cəmiyyətləri, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, biz hamımız birlikdə idmanı inkişaf etdiririk. Təsadüfi deyil ki, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında bizim idmançılarımız ən yüksək kürsüyə qalxırlar. Bu dəfə isə bu Oyunlar Azərbaycan idmanının, Azərbaycan dövlətinin təntənəsidir.

Biz gələcəkdə də uğurla inkişaf edəcəyik. Məndə bu məsələ ilə bağlı heç bir şübhə yoxdur. Azərbaycan inkişaf yolu ilə gedəcək. Gələcəkdə bizim böyük uğurlarımız və qələbələrimiz olacaqdır. Bu yolda bütün Azərbaycan xalqına yeni uğurlar, yeni qələbələr arzulayıram.

*AZƏRTAC*




### MEHRİBAN ARİF QIZI ƏLİYEVANIN "HEYDƏR ƏLİYEV" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban Arif qızı Əliyeva "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 iyun 2015-ci il***

## "BAKI-2015" BİRİNCİ AVROPA OYUNLARININ YEKUNLARI İLƏ BAĞLI MƏTBUAT KONFRANSI KEÇİRİLİB

İyunun 29-da "Bakı-2015" birinci Avropa Oyunlarının yekunları ilə bağlı keçirilən mətbuat konfransı keçirilib. **Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, "Bakı-2015" birinci Avropa Oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleq iştirak ediblər.** "Bakı-2015" ilk Avropa Oyunlarına istər yerli, istərsə də beynəlxalq media tərəfindən böyük diqqətin ayrıldığını bildirən Azad Rəhimov bu qədim Odlar Yurdunun zənginliklərinin həqiqətən də dünyaya təqdim edildiyini vurğulayıb. **Nazir Azərbaycan atletlərinin birinci Avropa Oyunlarında ümumilikdə 56, o cümlədən 21 qızıl medal qazanaraq ölkəmizin adını dünyanın idman tarixinə qızıl hərflərlə həkk etdiklərini diqqətə çatdırıb.**

Qeyd olunub ki, idmançılarımızın çıxışları ilə bağlı proqnozlar özünü tamamilə doğrultdu. Bizim göstəricilərimiz çox yüksəkdir. Bu gün Prezident İlham Əliyev bütün idmançılara, onların məşqçilərinə, Oyunların təşkilində iştirak edən insanlara təbriklərini çatdırdı və onlara yüksək mükafatlar təqdim etdi.

*AZƏRTAC*


BƏLƏDİYYƏ QULLUQÇULARINA VAHİD GEYİM FORMASI VERİLİB — *Səhifə. 2*

ƏMLAK VERGİSİ NECƏ HESABLANIR? YENİ QAYDALAR — *Səhifə. 2*

BƏLƏDİYYƏ XİDMƏT SAHƏSİ YARADIR — *Səhifə. 3*

BƏLƏDİYYƏLƏR GÖRDÜKLƏRİ İŞLƏRİ TƏBLİĞ ETMƏYİ BACARMALIDIRLAR — *Səhifə. 4*

# Əmlak vergisi necə hesablanır? YENİ QAYDALAR

**“Azərbaycan Respublikası Vergi Məcəlləsinin 198.1.1-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxslərin əmlak vergisi məqsədləri üçün Bakı şəhərində yerləşən binalara tətbiq edilən əmsallar”**ın təsdiq edilməsi barədə 12 Aprel 2015

**”Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1004-IVQD nömrəli Qanununun tətbiqi barədə”** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 avqust tarixli 242 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

1. ”Azərbaycan Respublikası Vergi Məcəlləsinin 198.1.1-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxslərin əmlak vergisi məqsədləri üçün Bakı şəhərində yerləşən binalara tətbiq edilən əmsallar” təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, Bakı şəhərində fəaliyyət göstərən bələdiyyə orqanlarını onların inzibati ərazilərinin əhatə olunduğu zonaları əks etdirən xəritələrlə təmin etsin.
3. Bu Qərar 2015-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Artur RASİ-ZADƏ,**
Azərbaycan Respublikasının Baş naziri
№— 101
Bakı şəhəri, 06 aprel 2015-ci il



**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 6 aprel tarixli 101 nömrəli qərarı ilə təsdiq edilmişdir**

*əvvəli ötən saylarımızda*

**Zona 5.**
Sərhədləri:
Metronun ”20 Yanvar” stansiyasmdan başlayaraq, cənub istiqamətində Tbilisi prospekti üzrə İzmir küçəsi üə kəsişənədək, İzmir küçəsi üzrə cənub istiqamətində İnşaatçılar prospekti ilə kəsişənədək, İnşaatçılar prospekti üzrə cəmıb istiqamətində Azad Mirzəyev küçəsi ilə kəsişənədək, Azad Mirzəyev küçəsi üzrə şimal istiqamətində Akim Abbasov küçəsi ilə kəsişənədək, Akim Abbasov küçəsi üzrə qərb istiqamətində Həsən bəy Zərdabi prospekti ilə kəsişənədək, Həsən bəy Zərdabi və Mətbuat prospektləri üzrə cənub istiqamətində Abbas Mirzə Şərifzadə küçəsi ilə kəsişənədək, Abbas Mirzə Şərifzadə küçəsi üzrə şimal istiqamətində Müzəffər Həsənov küçəsi ilə kəsişənədək, Müzəffər Həsənov küçəsi üzrə qərb istiqamətində Ülvi Bünyadzadə küçəsi ilə kəsişənədək, Ülvi Bünyadzadə küçəsi üzrə şimal-şərq istiqamətində Moskva prospekti ilə kəsişənədək, Moskva prospekti üzrə cənub istiqamətində metronun ”20 Yanvar” stansiyasınadək.

**Zona6.**
**Zona 6.1.**
Sərhədləri:
İzmir küçəsinin Tbilisi prospekti ilə kəsişməsindən başlayaraq, Tbilisi prospekti üzrə cənub istiqamətində Bakıxanov küçəsi ilə kəsişənədək, Bakıxanov küçəsi üzrə şərq istiqamətində Azadlıq prospekti ilə kəsişənədək, Azadıq prospekti üzrə şimal istiqamətində akademik Həsən Əliyev küçəsi ilə kəsişənədək, akademik Həsən Əliyev küçəsi üzrə şərq istiqamətində Aşıq Molla küçəsi ilə kəsişənədək, Aşıq Molla küçəsi üzrə cənub istiqamətində Fətəli xan Xoyski prospekti ilə kəsişənədək, Fətəli xan Xoyski prospekti üzrə şərq istiqamətində Əhməd Rəcəbli küçəsi ilə kəsişənədək, Əhməd Rəcəbli küçəsi üzrə şimal istiqamətində Ziya Bünyadov prospekti ilə kəsişənədək, Ziya Bünyadov prospekti üzrə qərb istiqamətində Rəşid Məmmədov küçəsi ilə kəsişənədək, Rəşid Məmmədov küçəsi üzrə şimal istiqamətində Hüseyn Seyidzadə küçəsi ilə kəsişənədək, Hüseyn Seyidzadə küçəsi üzrə şimal istiqamətində 20 Yanvar küçəsi ilə kəsişənədək, 20 Yanvar küçəsi üzrə qərb istiqamətində Moskva prospekti ilə kəsişənədək.

**Zona 6.2.**
Sərhədləri:
2-ci köndələn küçəsinin Heydər Əliyev prospekti ilə kəsişməsindən başlayaraq, şərq istiqamətində Nizami rayonunun inzibati sərhədi boyunca metronun ”Koroğlu” stansiyasınadək, metronun ”Koroğlu” stansiyasından başlayaraq, cənub istiqamətində Qara Qarayev prospekti üzrə Bəhruz Nuriyev küçəsi ilə kəsişənədək, Naxçıvanski küçəsi ilə kəsişənədək, Naxçıvanski küçəsi üzrə şərq istiqamətində Elşən Süleymanov küçəsi ilə kəsişənədək, Elşən Süleymanov küçəsi üzrə cənub istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə qərb istiqamətində Bəkir Çobanzadə küçəsi ilə kəsişənədək, Bəkir Çobanzadə küçəsi üzrə şimal istiqamətində Rüstəm Rüstəmov küçəsi ilə kəsişənədək, Rüstəm Rüstəmov küçəsi üzrə qərb istiqamətində Mikayıl Əliyev küçəsi ilə kəsişənədək, Mikayıl Əliyev küçəsi üzrə şimal istiqamətində dəmir yolu xətti ilə kəsişənədək, dəmir yolu xətti üzrə qərb istiqamətində 9-cu köndələn küçəsi ilə kəsişənədək, 9-cu köndələn küçəsi üzrə Pəhlivan Fərzəliyev küçəsi ilə kəsişənədək, qərb istiqamətində Pəhlivan Fərzəliyev küçəsi üzrə 2-ci köndələn küçəsi ilə kəsişənədək, 2-ci köndələn küçəsi üzrə bu küçənin Heydər Əliyev prospekti ilə kəsişdiyi yerədək.

**Zona 6.3.**
Sərhədləri:
Əl Oyunları stadionundan başlayaraq, şimal-şərq istiqamətində 3-cü zonanın sərhədi üzrə Gülüstan sarayının yanından keçən xətlə Şəhidlər Xiyabanınadək, Şəhidlər Xiyabanından şimal istiqamətində 4-cü zonanın Milli Məclisin və hərbi hissənin stadionunun yanından keçən sərhədi ilə Səbail rayonunun inzibati sərhədinin Mətbuat prospekti və Mikayıl Müşfiq küçəsi ilə kəsişdiyi yerədək, bu kəsişmə yerindən qərb istiqamətində Səbail rayonunun inzibati sərhədi üzrə cənub-qərb istiqamətində davam edir və bu rayonun digər zonalarla əhatə olunmayan ərazisini əhatə edir.

**Zona 6.4.**
Sərhədləri:
Aeroportun və aeroport yarmarkasnın yerləşdiyi ərazi.

*ardı gələn sayımızda*

# SUMQAYITDA “BƏLƏDİYYƏ KUBOKU” UĞRUNDA FUTBOL TURNİRİNƏ START VERİLİB

**Bu günlərdə M.Hüseynzadə adına mərkəzi şəhər stadionunda Sumqayıt Bələdiyyəsinin dəstəyi və təşkilatçılığı ilə ənənəvi olaraq Milli Qurtuluş günü münasibətilə məhəllə komitələrinin 11-12 yaşlı uşaqlardan ibarət futbol komandaları arasında keçirilən “Bələdiyyə kuboku” uğrunda uşaq futbol turnirinin açılışı olub.**



Tədbiri giriş sözü ilə açan Sumqayıt Bələdiyyəsinin sədri Əbülfəz Babayev cari ildə Sumqayıtda 10-cu dəfə keçirilən uşaq futbol turnirinin respublikamızın həyatında əlamətdar bir dövrə - Bakıda ilk Avropa Olimpiya oyunlarının davam etdiyi dövrə təsadüf edir. Sədrin sözlərinə görə, respublikamızda son illərdə idmanın müxtəlif sahələrinə uşaq və gənclərin cəlb edilməsi, onların idman yarışlarında daha fəallıqla iştirakı, bunun üçün hər cür imkanın yaradılması diqqətəlayiqdir. Təsadüfi deyil ki, Azərbaycanın gənc idmançıları son illərdə müxtəlif beynəlxalq yarışlarda, o cümlədən Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında yüksək nailiyyətlər əldə edir, respublikamızın həm də idman ölkəsi kimi tanınmasında mühüm rol oynayırlar.

Sumqayıt Bələdiyyəsinin rəhbərliyi və üzvləri, şəhər ictimaiyyətinin və idman təşkilatlarının, məhəllə komitələri nümayəndələrinin iştirak etdiyi açılış mərasimində Ə.Babayev məhəllə futbol komandalarında oynayan uşaqların öz futbol bacarıqlarını və məharətlərini daha səylə inkişaf etdirməsinə, hər zaman qətiyyətli olmalarına səsləyən belə bir faktı da onların diqqətinə çatdırdı: “Dünyanın “Futbol kralı” hesab edilən əfsanəvi Pele, Ronaldo, Azərbaycan futbolunun iftixarı olan məşhur futbolçularımız Ələkbər Məmmədov, Anatoli Banişevski və digərləri də böyük futbola kiçik məhəllə futbolundan, məhəllə meydançalarından gəlmişlər.”

Tədbirdə “Sumqayıt” peşəkar futbol klubunun prezidenti Kamran Quliyev, Sumqayıt şəhər Gənclər və İdman baş İdarəsinin rəisi Elşən Baxşəliyev və digərləri çıxış edərək, məktəbli futbolçulara yarışlarda uğurlar və gələcəkdə peşəkar futbolçu kimi yetişmələri üçün daha əzmkar olmağı arzulamışlar.

Azərbaycanın Əməkdar məşqçisi, yarışların baş hakimi Ağamusa Bağırov komandaların yarışlara tam hazır olduqları barədə təşkilat komitəsinin sədri Ə.Babayevə raport verdikdən sonra uşaqların 10-cu - yubiley futbol turniri açıq elan edilib.

Yarışlara start verilərək, bildirilib ki, ənənəvi olaraq 2006-cı ildən başlayaraq təşkil edilən “Bələdiyyə kuboku” uğrunda turnirdə şəhərin müxtəlif məhəllə və mikrorayonlarında fəaliyyət göstərən məhəllə komitələri tərəfindən sıralarına 280 uşağın cəlb olunduğu 20 komanda qələbə uğrunda mübarizə aparacaqdır.

Yarışlar iki ay yarım - bütün yay tətili boyu davam edərək, Sumqayıtın müxtəlif məktəblərinin və şəhərdə yaradılan nümunəvi məhəllələrin yaşıl futbol meydançalarında, final oyunları isə M.Hüseynzadə adına şəhər stadionunda keçiriləcəkdir. Turnir müddətində 40-dan artıq oyun keçiriləcəkdir.

Yarışın təşkili və keçirilməsinə rəhbərlik Sumqayıt Bələdiyyəsi, şəhər Gənclər və İdman Baş İdarəsi və “Şimal” Regional Futbol Federasiyası ilə birgə yaradılmış təşkilat komitəsi tərəfindən təyin olunmuş hakimlər kolleqiyasına həvalə edilmişdir.

Qaliblər «Bələdiyyəsi kuboku» və fəxri fərmanlarla mükafatlandırılacaqlar.

*Rəhman OPXAN*

## Xəbərlər

### Fikrət Fərrux oğlu Məmmədovun «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:



Azərbaycan Respublikası ədliyyə orqanlarının inkişafında xidmətlərinə görə Fikrət Fərrux oğlu Məmmədov «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 iyun 2015-ci il*

### QAZAXDA BƏLƏDİYYƏLƏR MAARİFLƏNDİRİLİB

Qazax şəhər Mədəniyyət mərkəzinnin akt zalında Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş mərkəzinin və Şəmkir Regional Şöbəsinin təşkilatçılığı ilə bələdiyyələrə seminar keçirilib. Qazax və Ağstafa bələdiyyələrinin iştirakıyla keçirilən tədbir “Bələdiyyələrin fəaliyyətinin təşkili və mühasibat sənədlərinin düzgün istiqamətdə tərtibi” mövzusuna həsr edilib.

Tədbiri giriş sözü ilə Qazax RİH-nin İnformasiya təminatı və təhlili sektorunun müdiri Məhəmməd Orucov açaraq bu cür tədbirlərin mahiyyəti və əhəmiyyəti haqqında tədbir iştirakçılarına məlumat verib.

Tədbirdə Ədliyyə Nazirliyinin Şəmkir Regional şöbəsinin böyük məsləhətçisi Qara Muradov “Bələdiyyələrin fəaliyyətində arxiv işinin təşkili” mövzusunda, şöbənin birinci dərəcəli ədliyyə qulluqçusu Heydər Əliyev “İnsan hüquqlarının qorunmasında bələdiyyələrin rolu” mövzusunda, şöbənin ikinci dərəcəli ədliyyə qulluqçusu Taryel Qəhrəmanov “Bələdiyyələrin nümunəvi reqlamenti” mövzusunda, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin təmsilçisi Zöhrab Fərəcov “Mühasibat sənədlərinin düzgün istiqamətdə tərtibi” mövzusunda məruzələrlə çıxış ediblər.

Çıxış seminar iştirakçılarının marağına səbəb olmuş və bələdiyyə qulluqçularının maarifləndirilməsi nöqteyi-nəzərdən mühüm əhəmiyyət kəsb etmişdir. Tədbirin sonunda seminar iştirakçıları ilə fikir mübadiləsi aparılaraq və onların maraqlandıran suallar cavablandırılıb.

*Belediyye.info*

### BƏLƏDİYYƏ QULLUQÇULARINA VAHİD GEYİM FORMASI VERİLİB

“Bərdə bələdiyyəsində qulluqçular iş vaxtında vahid forma geyinirlər”- bu barədə Belediyye.info saytına şəhər bələdiyyəsinin sədri Sadiq Xəlilov deyib. Onun sözlərinə görə, mart ayında keçirilən bələdiyyə iclasında vahid formanın tətbiqiylə bağlı təklifə əsasən qərar verildi. Hazırda hər bir qulluqçunun öz geyimi var və onların hər biri bələdiyyə büdcəsi hesabına həyata keçirilib Elə həmin iclas-



da da vahid geyim formasında bələdiyyə aid nişanların olması da müzakirə edilərək təsdiqləndi. Sədrin sözlərinə görə, vahid geyim formasının tətbiqi əhalinin bələdiyyələrə olan diqqətini artıra bilər. Son iki ay ərzində əhalinin bu geyim formasında olan əməkdaşlarımıza olan ən sadə müraciətlərində belə yaxşılığa doğru dəyişiklik hiss edilməkdədir.

Qeyd edək ki, respublika bələdiyyələri arasında ilk dəfə olaraq vahid geyim forması Bərdə bələdiyyəsində tətbiq edilib.

*Belediyye.info*

# QARAXAN CƏFƏROV: "AY ƏRZİNDƏ 3000 MANATA YAXIN VERGİ TOPLANIR"

"Bələdiyyələrin maliyyə vəsaiti olsa, istənilən sosial problemlər öz həllini tapa bilər"-bu fikirləri Belediyye.info saytına Ağcabədi bələdiyyəsinin sədri Qaraxan Cəfərov deyib.



Onun sözlərinə görə, rayonda əmlak və torpaq vergisinin toplanması istiqamətində lazımi işlər görülür: "Amma vergilərin toplanmasında çətinliklərimiz də var. Misal üçün, vətəndaş işıq pulunu ödəməyəndə bir müddətdən sonra gedib işığını kəsirlər. Lakin bələdiyyə olaraq, biz sakinlərə bildirişi veririk, ikinci dəfə qapısına gedəndən sonra yadlarına düşür ki, bələdiyyə bildiriş verib. Bu mənada gərək insanlara dəfələrlə vergini ödəmək üçün müraciət edəsən. Ölkə başçısının fərmanına uyğun olaraq, yeni qaydalar əsasında vətəndaşlara bildirişlər paylanılıb. Lakin hesab edirəm ki, əmlak və torpaq vergisinin toplanması üçün işıq, qaz və su idarələrinin tətbiq etdiyi inzibati cəza mexanizmləri kimi bələdiyyələrə də belə bir qanuni imkan yaradılmalıdır.

Düzdür, biz vətəndaşlara izah edirik ki, əgər vergi ödənilməsə, ödəniş məhkəmə vasitəsilə həyata keçiriləcək. Lakin onu deyim ki, 100 manat pensiya alan vətəndaşdan məhkəmə 3 manat tutur, bunu da 3 aydan artıq edə bilmir. Hesab edirəm ki, bu mənada qanunlara yenidən baxılmalıdır, dəyişikliklər edilməlidir. İndiki halda yığımlar normal şəkildə toplanır. Əmlak və torpaqdanay ərzində təxminən 3000 manata yaxın vergi toplanır".

Bələdiyyə sədri qeyd edib ki, əmlakların qeydiyyata alınması prosesi Ağcabədidə də həyata keçirilir: "Bununla bağlı komissiya yaradılıb və təxminən 90 faiz əmlak qeydiyyata alınıb".

Q.Cəfərov deyib ki, icra hakimiyyəti bələdiyyənin fəaliyyətinə maneələr yaratmır, əksinə müraciət etdikdə müəyyən köməklik göstərilir. Onun sözlərinə görə, bir çox hallarda ərazidə yaranmış problemi daha çox bələdiyyə özü həll etməyə çalışır.

*Bəxtiyar Məmmədli*

# Bələdiyyə xidmət sahəsi yaradır




**"Bələdiyyə olaraq, Lahıcda Azərbaycan Kənd İnvestisiya Layihəsində (AzKİL) "İcma bazarı" tikirik. Bu da bələdiyyəyə əlavə gəlir gətirən sahədir". Bu fikirləri İsmayıllı rayonu Lahıc bələdiyyəsinin sədri Rövşən Əliyev deyib.**

Onun sözlərinə görə, bu layihə Dünya Bankının vasitəsilə maliyyələşir: "Bu həm icmaya, həm də bələdiyyəyə xeyir gətirən layihədir. Bundan əlavə bələdiyyə tərəfindən dayanacaq tikirik və buradan da gəlir əldə edəcəyik. Eyni zamanda Lahıca giriş "İçərişəhər" Dövlət Qoruğu kimi edəcəyik. Bura daxil olmaq istəyənlər müəyyən miqdarda pul ödəməklə daxil olacaqlar. Əslində biz bu addımı Lahıcın tarixiliyini qoruyub saxlamaq üçün edirik.

Bizim bölgə turist zonasıdır və düşürük ki, "bələdiyyə xidməti" kimi bir servis formalaşdıraq. Bu xidmət daxilində turistlərin daşınması həyata keçiriləcək. Eyni zamanda onlara "fast food" kimi milli mətbəximizdən yeməklər təklif olunacaq. Bələdiyyənin inkişafı üçün bu kimi ideyalar fikirləşmişik və həyata keçiririk".

Bələdiyyə sədri deyib ki, AzKİL vasitəsilə ilk layihə Lahıc qəsəbəsi ilə Ərəgit kəndi arasında 1250 kvadrat-metrlik yola çınqıl daş döşənib: "İkincisi, qeyd etdiyim, "İcma bazarı" layihəsidir. Bu binanın artıq birinci mərtəbəsi hazırdır və başa çatdıqdan sonra 10 ailə buradan dolanacaq. Biz onlardan daha bir layihə götürməyi düşünürük və əsasən gəlir gətirən sahə ilə bağlı layihələri götürüb işləmək niyyətindəyik. Çünki buradan 10-15 nəfər işlə təmin oluna bilər".

R.Əliyev deyib ki, əmlak və torpaq vergisinin toplanması ilə bağlı işlər davam edir. Onun sözlərinə görə, artıq hər iki vergi üzrə yerli əhalidən vergilər toplanıb: "Burada yaşayan əhali vergiləri verməkdə maraqlıdır. Sadəcə, burada böyük ev tikib və daimi yaşamayanlardır ki, onlar da yay ərzində gəlirlər. Onlardan da əmlak vergisini toplayacağıq. Bizdə çətinlik ondadır ki, əhalinin əmlakının texniki pasportu yoxdur və konkret evlərinin kvadratı bilinmir. Özümüzdə onu ölçmək üçün çox böyük əziyyət çəkirik və əslində bu bizim işimiz də deyil. Bələdiyyələrin bu işi həyata keçirməsi üçün mütəxəssisi olmalıdır, lakin buna da maddi imkanımız yoxdur. Bu təkcə bizim yox, bütün bələdiyyələrin problemidir.

Əmlakların qeydiyyata alınması prosesini də demək olar ki, yekunlaşdırmışıq. Sadəcə, bu əmlakların vergisinin toplanması qalır".

Bələdiyyə sədri vurğulayıb ki, yerli icra hakimiyyəti bələdiyyələrin fəaliyyətinə maneə yox, köməklik göstərirlər: "Bir çox hallarda İsmayıllı rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqovun birbaşa müdaxiləsi və dəstəyi ilə rayon bələdiyyələrinə ciddi köməkliklər göstərilir.. Bizə yaratdığı bu şəraitə görə, bələdiyyə sədri olaraq rayon rəhbərliyinə təşəkkürümü bildirirəm".

*"Bələdiyyə Həyatı"*

# ASYA ALHÜSEYNOVA: "VƏTƏNDAŞLA BƏLƏDİYYƏ ARASINDA QARŞILIQ ETİMAD YARADILMALIDIR"

**"Bələdiyyəmizin vergi qalıqları yoxdur. Əmlak vergisini də qalıq saymaq olmaz hələlik və ancaq torpaq vergisi toplayırıq". Bu fikirləri belediyye.info saytına açıqlamasında Qazax rayon Xanlıqlar bələdiyyəsinin sədri Asya Alhüseynova deyib. Onun sözlərinə görə, bələdiyyənin özünün digər qurumlara ciddi borcu yaranmır: "Dövlət Sosial Müdafiə Fonduna kvartalda kvartala yaranan borclar ödənilir. Ancaq ötən ildən bələdiyyə işçilərinə 4-5 aylıq əmək haqqı borcumuz var. Bu il üçün isə ümumiyyətlə əmək haqqı almamışıq".**

A.Alhüseynova deyib ki, əhalidən əmlak və torpaq vergisinin toplanması son iki ilə qədər normal şəkildə toplanıb: "Lakin son iki ildə bu sahədə azalma müşahidə olunur. Yeni qaydalara əsasən, vətəndaşlara bildirişlər paylanılıb, ancaq ödənişlər çox azdır. Çünki indi rayonumuzda, bələdiyyə ərazisində əkin-biçin dövrü başlayıb. Ona görə də əhali hələ ki, vergiləri bir müddət sonra ödəyəcəyini bildirir. Məsuliyyətli insanlar vergini ödəyir, lakin elələri də var ki, ümumiyyətlə hər cür məsuliyyətdən yayınır.

Kənd yerlərinin bir çoxunda evlərin kupçası yoxdur və ölkə başçısının müvafiq sərəncamına uyğun olaraq evlərin ölçmə işlərini, müvafiq güzəştlərin tətbiqi və digər məsələləri həll etmişik. İndiyədək bələdiyyə olaraq əmlak vergisi yığmamışıq, son qaydalara əsasən bildirişləri də paylamışıq. Hələ ki, ödəmələr edən olmasa belə, bildirişləri paylayan zaman etiraz edənlər də olmayıb. Ona görə də biz bələdiyyə olaraq müvafiq maarifləndirmə işləri aparırıq.

Qeyd edim ki, icra hakimiyyətinin bələdiyyəyə köməkliyi olur. Beləki, yollara çınqıl tökdürürük və onun yayılması üçün icra hakimiyyətinə müraciət edirik, bizə texnika verirlər. Çünki bələdiyyənin texnikası yoxdur".

Bələdiyyələrin nüfuzunun artırılması məsələsinə toxunan sədr vurğulayıb ki, vətəndaşların bu qurumlara işi düşmədiyi üçün ona laqeyd yanaşır: "Yəni, insanlar özləri bələdiyyə üçün heç nə etmir, vergisini ödəmir, amma bir problemləri olanda bizi günahkar sayırlar. Ona görə də vətəndaşla bələdiyyə arasında qarşılıq etimad yaradılmalıdır. Bəlkə də bu məsələdə bizim özümüzün də haradasa zəif cəhətlərimiz var. Təsəvvür edin ki, iki şəxs öz arasında razılaşıb torpaq alqı-satqısı edir, bələdiyyənin bundan xəbəri belə olmur. Bələdiyyə də vergini almaq üçün vətəndaşa müraciət edəndə ona məxsus torpağı satdığını deyir. Hesab edirəm ki, bir müddət əvvəl bu məsələ ilə bağlı qeyd edilmişdir ki, torpaq alqı-satqısı notarial qaydada təsdiqləndiyi halda bələdiyyədən arayış alınsın. Ya da vətəndaşın torpağı satması ilə bağlı sənədin surətini bələdiyyəyə göndərsinlər.



Bizim bələdiyyənin ərazisindəki torpaqlar ancaq sahibkarlıq fəaliyyəti ilə bağlı hərraca çıxarılır. Ancaq həyətyanı torpaq sahəsi kimi torpaqlar hərraca çıxarılmır, çünki 5 il qeydiyyatda olan vətəndaş bizə müraciət edib torpaq ala bilər. Yeni qaydalar necə olacağını bilmirik, çünki Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi ləğv olunub. Həmin vaxtdan üzü bu yana hərrac vasitəsilə torpaq satışı həyata keçirməmişik".

*Belediyye.info*

## Xəbərlər



# Ankarada "Azərbaycan Evi"nin açılışı olub

Ankaranın Keçiören rayon bələdiyyəsinin təşkil etdiyi 6-cı Beynəlxalq Ramazan Şənlikləri çərçivəsində Azərbaycan Gecəsi təşkil olunub. görə, Sumqayıt şəhər bələdiyyəsinin sədri Əbülfəz Babayevin Belediyye.infoya verdiyi məlumata görə, tədbir çərçivəsində ölkəmizə məxsus tarixi, mədəni və incəsənət əsərlərinin nümayiş etdirildiyi "Azərbaycan Evi"nin açılışı olub.

Açılış mərasimində Keçiören bələdiyyəsinin sədri Mustafa Ak, Azərbaycanın Türkiyədəki Fövqəladə və Səlahiyyətli Səfiri Faiq Bağırov, Sumqayıt şəhər bələdiyyəsinin sədri, Azərbaycan Milli Şəhər Bələdiyyələri Assosiasiyasının sədri Əbülfəz Babayev və AKP millət vəkili Orxan Atalay iştirak edib.

Azərbaycan Evini ziyarətə gələn çoxsaylı qonaqlara "Heydər Əliyev" və "İlham Əliyev" kitabları ilə yanaşı "İrs-Miras" və "Diplo Atlas" jurnalları, habelə ölkəmizlə bağlı çoxsaylı materiallar hədiyyə edilib.

Tədbir ölkəmizdən Azərbaycan Gecəsində iştirak etmək üçün gələn muğam qrupunun gözəl əsərlər səslendirməsi ilə yekunlaşıb.

*Belediyye.info*

# QAZAX BƏLƏDİYYƏLƏRİ 2014-CÜ İLDƏ NƏ QƏDƏR QAZANIB?

Qazax rayonunun 17 bələdiyyəsi ötən il 424.700 manat vəsait toplaya bilib. Bu vəsaitin 14,6 %-i torpaq vergisindən, 5,3 % -i əmlak vergisindən, 1,7 % küçə reklamlarından , 0,2% avtomobil dayanacaqlarından daxil olub . Dövlət Statistika Komitəsinin hesabatları əsasında hazırlanmış təhlilə görə, əsas maliyyə vəsaiti, yəni 68,9 % -i bələdiyyə əmlakının özəlləşdirilməsi və icarəyə verilməsindən daxil olub.

Ötən dövr ərzində Qazax bələdiyyələri tərəfindən mədən vergisinin yığımı həyata keçirilməyib. Bələdiyyələr tərəfindən qazanılan maliyyə vəsaitinin 55,7 % bələdiyyələrin idarəetmə orqanlarının saxlanmasına, 42 % -i isə mənzil - kommunal təsərrüfatının idarəedilməsinə yönəldilib.

*"Belediyye.info"*

# "Əhalini vergiləri ödəməyə çağırırıq"

"Bələdiyyəyə əlavə gəlir mənbələri cəlb etmək üçün bələdiyyənin özünün əsaslı maliyyəsi olmalıdır. Biz bu istiqamətdə müəyyən addımlar atmağa çalışırıq". Bu fikirləri Qaradağ rayonu Korgöz bələdiyyəsinin sədri Rövşən Əbdülbağıyev deyib. Onun sözlərinə görə, yeni qaydalara əsasən vətəndaşlara əmlak və torpaq vergilərini ödəmək üçün bildirişlər paylanılır: "Hətta bununla bağlı maarifləndirmə işləri həyata keçirirk. Buna baxmayaraq, vergi ödəmələri çox azdır. Əvvəllər aya 500 və daha çox məbləğdə vergi toplayırdıq. Lakin son aylar bu rəqəm 120-130 manat çərçibəsindədir. Ona görə də bələdiyyə olaraq, qəsəbədəki ağsaqqalların, ictimai rəyə təsir edən insanların iştirakı ilə iclaslar keçirib, əhalini əmlak və torpaq vergilərini ödəməyə çağırırıq".

R.Əbdülbağıyev qeyd edib ki, qəsəbəyə 2011-ci ildə su, 2012-ci ildə kanalizasiya xətti çəkilib: "Kəndarası yollar mütəmadi olaraq, təmir olunur. Qeyd edim ki, bütün bunlar Qaradağ rayon icra hakimiyyətinin dəstəyi ilə mümkün olub. Hazırda qəsəbədə su, qaz, işıq problem yoxdur. Lakin kanalizasiya xətti çəkilişi başa çatmadığından hələki asfalt çəkilməyib. Bu işlər başa çatdıqdan sonra qəsəbədəki yolların böyük əksəriyyəti yenidən asfaltlanacaq.

Ona da qeyd edim ki, bələdiyyələrin nüfuzunu artırmaq üçün özünüidarəetmə orqanı çalışmalıdır. Biz də bələdiyyə olaraq, çalışırıq və sakinlərimizin etimadının qazanılması istiqamətində fəaliyyətimizi qururuq".

*BƏXTİYAR*

# BƏLƏDİYYƏ HƏYATI

BƏLƏDİYYƏLƏR YERLİ ÖZÜNÜİDARƏETMƏNİN DEMOKRATİK FORMASIDIR


# BƏLƏDİYYƏLƏR GÖRDÜKLƏRİ İŞLƏRİ TƏBLİĞ ETMƏYİ BACARMALIDIRLAR



*Qədir Paşayev*
*Xaçmaz regional ədliyyə şöbəsinin aparıcı məsləhətçisi*

**Azərbaycanın milli inkişaf konsepsiyasının qətiyyətlə həyata keçirilməsi ölkəmizi qüdrətli dövlətə çevirmişdir. Respublikamızın iqtisadi potensialının güclənməsi sosial, hüquqi və digər sahələrlə yanaşı, yerli özünüidarənin də inkişafına müsbət təsir etmişdir.**

Belə ki, "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında" və digər qanunlar yerli özünüidarənin fəaliyyətin yaxşılaşdırmağa yönəlmiş, eyni zamanda insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində bir sıra zəruri dəyişiklik və əlavələr edilmişdir. Məhz insan hüquq və azadlıqlarının daha səmərəli təmini istiqamətində həyata keçirilən islahatların məntiqi davamı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı təsdiq edilmişdir. Çoxşaxəliliyi ilə fərqlənən və çox mühüm konseptual sənəd olan bu proqramın hazırlanması prosesində mütərəqqi beynəlxalq təcrübədən istifadə olunmuşdur. Milli fəaliyyət proqramının icrası məqsədilə bələdiyyələr ərizə və şikayətlərə baxılması işini təkmilləşdirməli, onların elektron qaydada qəbulu və rəsmi cavablandırılmasını təşkil etməli, öz fəaliyyətləri barədə ictimaiyyətə müntəzəm məlumat verməlidirlər.

***

Bələdiyyələrdə vətəndaşların qəbulu günün tələblərinə uyğun olaraq təşkil edilməsi, hər bir müraciətin qeydiyyata alınaraq ona diqqətlə yanaşılıb müsbət həll olunmasına maksimum səy göstərilməsi vacibdir və insan hüquqlarının təmini sahəsində mühüm rol oynayır. Bələdiyyələr vətəndaşların hüquqlarının təminatçısı olmaqla kifayətlənməyərək ərazisində yaşayan hər bir şəxsin hüquqlarının pozulmasının qarşısının alınmasına yönələn tədbirlər görməlidirlər. Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2012-ci il tarixli fərmanı ilə "Bələdiyyələrin nümunəvi reqlamenti" təsdiq edilmişdir ki, həmin reqlament bələdiyyə iclaslarının çağırılması, əhali ilə görüşlərin təşkili qaydalarını tənzimləyir.

Qüvvədə olan qanunvericiliyin tələblərinə əsasən bələdiyyələr seçiciləri ilə əlaqə saxlamalı və 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verməlidirlər. Belə ki, Bələdiyyələr bələdiyyənin fəaliyyəti, qəbul edilmiş sənədlər və onların icrası ilə bağlı görülmüş işlər və digər məsələlər barədə əhaliyə hesabat verməlidirlər. Bunun üçün bələdiyyələrə müəyyən səlahiyyətlər verilmişdir. Onlar öz işlərini aşkarlıq və şəffaflıq şəraitində qurmalı və yerli əhalini ölkədə gedən proseslərə cəlb etməlidirlər.

Bundan əlavə bələdiyyələr gördükləri işləri təbliğ etməyi də bacarmalıdırlar. Çünki bu, aşkarlığın və şəffaflığın təmin edilməsinin mühüm bir formasıdır.

Həmçinin bələdiyyələr onlara verilmiş təklif, ərizə və şikayətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada baxmalı, qaldırılmış məsələlərin düzgün və vaxtında həlli üçün tədbirlər görməli, vətəndaşları qəbul edib, ictimai rəyi öyrənib və məsələlərin həlli üçün müvafiq təkliflər verməlidirlər.

Bələdiyyənin sədri və onun müavini tərəfindən vətəndaşların qəbulu təşkil olunmalı və Qanunvericilikdə nəzərdə tutulduğu kimi vətəndaşların qəbulu cədvəli bələdiyyənin iclasında təsdiq edilməli və bələdiyyə binasının qarşısındakı lövhədə yerləşdirilməlidir.

Azərbaycan Prezidentinin 5 sentyabr 2012-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda yerli özünüidarənin və demokratiyanın inkişafı məsələlərinə də önəm verilərək görüləcək işlərin dairəsi, o cümlədən yerli büdcənin tərtibinə və icrasına, sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna, habelə bələdiyyələrin maliyyə hesabatlarının vaxtında təsdiq olunmasına nəzarət mexanizmləri və prosedurları və s. kimi önəmli vəzifələr müəyyən edilmişdir. Eyni zamanda, Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icra edilməsi bələdiyyələrə tövsiyə olunmuşdur.

Əhalinin sağlamlığı, onların sağlam ətraf mühitdə yaşamaq hüququnun təmini və ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması məqsədilə əhali arasında mütəmadi olaraq maarifləndirmə işləri aparılmalı, eyni zamanda mövcud olan ekoloji tarazlığın qorunub saxlanılması, bələdiyyə ərazisinin abadlaşdırılması, məişət tullantılarının yığılması, nəql edilməsi, zərərsizləşdirilməsi və bu sahədə digər məsələlərin həlli üçün tədbirlər görülməlidir.

Ölkə Prezidentinin sərəncamları ilə bir sıra bələdiyyə sədrlərinin yüksək dövlət mükafatları ilə təltif olunması da ölkəmizdə yerli özünüidarənin inkişafının, yerli demokratiyanın daha da tərəqqi etməsinin, bələdiyyələrin fəaliyyətinin dövlətin daim diqqət mərkəzində olmasının göstəricisidir.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsinin təkmilləşdirilməsi, onun səmərəliliyinin artırılması, bələdiyyələrdə qanunçuluğun möhkəmləndirilməsi məsələləri Ədliyyə Nazirliyinin kollegiya iclaslarında da dəfələrlə müzakirə edilmiş, bu sahədə işin yaxşılaşdırılması məqsədi ilə müvafiq qərarlar qəbul edilmiş, həlli vacib olan məsələlər üzrə zəruri tapşırıqlar verilmiş və bir sıra başqa tədbirlər həyata keçirilmişdir.

Bələdiyyələrdə kənd təsərrüfatı torpaqlarının idarə olunmasında qanunçuluğun gücləndirilməsi də əsas amillərdən biridir.

***

Hamımıza məlumdur ki, Azərbaycan Respublikasında "Torpağın təyinatını yalnız Nazirlər Kabineti dəyişə bilər"

Bu gün torpaq sahələrindən istifadədə mövcud problemlərdən biri də odur ki, müəyyən hallarda torpaqlar təyinatı üzrə istifadə olunmur. Bəzən də olur ki, kənd təsərrüfatı fəaliyyəti üçün nəzərdə tutulan torpaqdan mənzil və ya mənzil təyinatlı torpaqlardan isə kommersiya məqsədi ilə istifadə edilir.

Halbuki "Torpaq icarəsi haqqında" qanunda da torpaqların təyinatı üzrə istifadə edilməsi əsas şərtlərdən biri kimi qeyd olunur. İcarəyə verilmiş torpaqların məqsədli təyinatının dəyişdirilməsi isə Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müəyyən olunur və icarə müqaviləsində əks etdirilir. İcarəyə verilmiş torpaqların başqa məqsədlər üçün istifadəsinə yalnız məqsədli təyinatının dəyişdirilməsindən sonra yol verilə bilər.

Problem ondan ibarətdir ki, bələdiyyə torpaqlarına nəzarətetmə imkanları bu gün olduqca məhduddur. Yəni, torpaq sahələrinin təyinatı üzrə istifadə edilməməsinin səbəblərindən biri də bələdiyyələr tərəfindən nəzarətin zəif həyata keçirilməsidir.

Belə olan halda qanunvericiliyin tələbləri pozularaq qeyd olunan torpaqlar təyinatı üzrə istifadə edilmədən bir çox hallarda kommersiya və digər məqsədlər üçün istifadə olunur.

Kənd təsərrüfatı və digər kateqoriyalı torpaqların təyinatı üzrə istifadə edilməsi, bələdiyyələrin daim diqqət mərkəzində olmalıdır.

***

Şəffaflığın artırılması, İnsan hüquq və azadlıqlarının qorunması və müdafiə olunması sahəsində, həmçinin yuxarıda qeyd olunan digər məsələlərin qanuna müvafiq qaydada icrası istiqamətində yerli özünüidarəetmə orqanları olan bələdiyyələr öz fəaliyyətlərini genişləndirməli və daha da inkişaf etdirməlidirlər.

# ZAKİR CƏFƏROV: "ƏMLAK VƏ TORPAQ VERGİSİNİ TOPLAMAQ ÇƏTİNDİR"

"Cari il ərzində altı dəfə bələdiyyənin iclasını keçirmişik". Bu fikirləri belediyye.info saytına açıqlamasında Yasamal bələdiyyəsinin sədri Zakir Cəfərov deyib. Onun sözlərinə görə, iclaslarda vergilərin yığılması, bələdiyyədə yeni ştatın təşkil olunması, büdcənin, iş planının müzakirəsi, komissiyaların yaradılması, abadlıq-quruculuq işləri, o cümlədən I Avropa Oyunları ilə bağlı divarlara posterlərin vurulması, dairəvi yola ağacların alınması, bayram tədbirlərinin keçirilməsi və bələdiyyəyə müraciət edən imkansız ailələrin məktublarına baxılması və digər məsələlər müzakirə edilib: "Bələdiyyədə keçirilən iclaslardan sonra qəbul edilmiş qərarlar Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinə göndərilir. Çünki burada bələdiyyələrin fəaliyyətinə nəzarət edilir, o cümlədən çıxarılan qərarlara. Biz qəbul etdiyimiz qərarları maksimum bir həftə ərzində Bələdiyyələrlə İş Mərkəzinə göndəririk.

Qərarlarda yer alan məsələlərdən biri növbəti iclasa qədər öz həllini tapmadıqda biz həmin məsələni yenidən müzakirə edirik və niyə, nə üçün həll edilməməsini araşdırırıq".

Z.Cəfərov deyib ki, əmlak və torpaq vergisini toplamaq çətindir. Onun fikrincə, bələdiyyə son 5 ayda bu vergilərdən haradasa 50 faizini toplaya bilib: "Onu da qeyd edim ki, bələdiyyənin fəaliyyətində hər hansı problemlər olduqda icra hakimiyyətinə müraciət edirik. Onlarda bizə lazımiköməklikləri göstərirlər. Bu qurum indiyədək bizim fəaliyyətimizə maneələr yaratmayıb".

***"Belediyye.info"***

# ZAHİR BAYRAMOV: "ƏHALİNİN BƏLƏDİYYƏYƏ KÜLLÜ MİQDARDA BORCU VAR"




**"Bələdiyyəmizin əmlak və torpaq vergisindən başqa gəlir mənbəyi yoxdur"-bu fikirləri Belediyye.info saytına açıqlamasında Ağcabədi rayonu Rəncbərlər bələdiyyəsinin sədri Zahir Bayramov deyib.**

Onun sözlərinə görə, hazırda əmlak və torpaq vergisinin toplanması özü bir sıra çətinliklə üzləşir: "Rəncbərlər bələdiyyəsi tərəfindən hazırda əmlakların ölçülməsi və qeydə alınması prosesi yekunlaşmaq üzrədir. Bildirişlər də əhaliyə paylanılıb. Açığı, indi vergilərin toplanması bir problemdir. Maarifləndirmə işləri aparırıq, vətəndaşları məcbur eləmək olmur. Amma hələki köçürmə edən yoxdur. Torpaq vergisi də az miqdarda toplanıb. Çünki indi təsərrüfatın qızğın vaxtıdır və bu ayın axırından başlayaraq, yəni məhsul yığım başlandıqdan sonra vətəndaşlar vergiləri ödəməyə başlayırlar".

Z.Bayramov deyib ki, vergilərin yığılması üçün bələdiyyələrə kömək lazımdır: "Bunun üçün bir qurum və təşkilat yaradılsaydı, biz də vergilərin yığımı ilə bağlı buradan bizə köməklik göstərərdilər. Yaxud da, bələdiyyə vergilərinin toplanması Vergilər Nazirliyi ilə əlaqələndirilməlidir. Bələdiyyələr öz nüfuzunu artırmaq üçün öz üzərinə düşən işləri həyata keçirir. Özünüidarəetmə olan bu qurumlar özü işləyib qazanmalıdır. Lakin bələdiyyələrin indiki halda yalnız gəlir yeri əmlak, torpaq vergisidir və icarədən gələn maliyyədir. Bələdiyyələrin bundan artıq gəlir yeri yoxdur. Hazırda bələdiyyənin büdcəsində heç 600 manat pul yoxdur. Əhalinin də bələdiyyəyə küllü miqdarda borcu var. Ona görə də, bələdiyyə işçilərinin də əmək haqqısı ləngiyir və deyərdim ki, biz may ayının maaşını almamışıq.

İcra hakimiyyəti müraciət etdikdə hər zaman bizə köməklik göstərir. İstənilən vaxt biz bu diqqəti görürük".

***"Belediyye.info"***

## ALLAH RƏHMƏT ELƏSİN

Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin kollektivi Mərkəzi Seçki Komisiyyasının üzvü Arifə Muxtarovaya atası

***Ağaverdi Muxtarovun***

vəfatından kədərləndiyini bildirir və dərn hüznlə başsağlığı verir.

---

"Bələdiyyə Həyatı" qəzetinin kollektivi Mərkəzi Seçki Komisiyyasının üzvü Arifə Muxtarovaya atası

***Ağaverdi Muxtarovun***

vəfatından kədərləndiyini bildirir və dərn hüznlə başsağlığı verir.

# QHT LAYİHƏYƏ CƏBHƏ BÖLGƏSİNDƏ YEKUN VURDU

"Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyi Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə "Yerli orqanlara müasir informasiya texnologiyalarından istifadə etməklə hüquqi xidmətlərin göstərilməsi" layihəsinin yekun təqdimatını keçirdi. Ağdam Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə Bərdə, Tərtər, Ağcabədi və Ağdam bələdiyyələrinin təmsilçiləri, habelə Bərdə Regional Ədliyyə Şöbəsinin rəsmiləri və yerli KİV təmsilçiləri iştirak edirdi.




Tədbiri giriş sözü ilə açan Ağdam RİN -in məsul işçisi Allahverən Əliyev tədbirin əhəmiyyətindən danışaraq, rayon bələdiyyələri ilə qarşılıqlı əlaqələri qurulduğunu bildirib. Onun sözlərinə görə, bu gün cəhbə bölgəsi bələdiyyələri prezidentin sərt tənqidindən nəticə çıxararaq ciddi addımlar atırlar.

Tədbirdə çıxış edən "Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyinin sədri Vüqar Tofiqli "Bələdiyyələrin inkişafında İKT-nin rolu" mövzusunda məruzə edib. Məruzəsində layihə barəsində danışan V.Tofiqli layihə çərçivəsində Bakının Suraxanı, Ağdam və Tərtər rayonlarındakı bələdiyyələrə qrup şəklində hər birində bir dəfə olmaqla hüquqi dərslər təşkil edildiyini və qeyd edilən məsələlərlə bağlı bələdiyyə üzvlərinə metodik tövsiyyələr verildiyini qeyd edib.

QHT sədrinin sözlərinə görə, təşkilat həmçinin layihə çərçivəsində istifadəyə verilən Belediyye.info saytı vasitəsiylə bələdiyyyələrə həm qanunların izahı verildiyini, habelə onların fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırıldığını bildirib.

Təbdirdə çıxış edən Ədliyyə Nazirliyinin Bərdə Regional şöbəsinin baş məsləhətçisi Azər Allahverdiyev bələdiyyələrin inkişaflnda İKT-nin xüsusi rolu olduğunu qeyd edərək, bələdiyyə sədrlərinin üzərinə böyük məsuliyyət yükü düşdüyünü deyib. Onun sözlərinə görə, istər aktların təqdimatında, istərsədə iclasın qərarların hazırlanmasında diqqətli olmalıdırlar.

Seminar ciddi fikir mübadiləsi ilə davam edib.

Məlumat üçün bildiririk ki, "Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyi Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirdyi sayca dördüncü layihəsidir.

***"Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyi***


**"Bələdiyyə həyatı" qəzetinə abunə olmağa tələsin**

***Qəzetin illik abunə haqqı 67 (altmış yeddi) manatdır.***

**"Bələdiyyə həyatı" qəzeti redaksiyasının abunə rekvizitləri**

Adı: "ATRABANK" ASC
Kodu: 507525 VÖEN: 9900010231
Müxbir hesabı:
AZ94NABZ01350100000000025944
S.W.I.F.T. BİK ATRAAZ22

**"BƏLƏDİYYƏ HƏYATI" QƏZETİ MMC**
**HESAB N_ AZ11ATRA40090048000000000064**
**VÖEN: 1001116461**





Təsisçi: T.Səlimzadə

Redaktor: Vüqar TOFİQLİ

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Bəşir Səfəroğlu küçəsi 141. AZ1009*

Tel: (012) 594-47-35
Mob: (+994 070) 221-28-14

Qəzet Ədliyyə Nazirliyində qeydə alınmışdır. 17.02.2003

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Faktlara görə müəlliflər məsuliyyət daşıyır.

Adı: "ATRABANK" ASC
Kodu: 507525 VÖEN: 9900010231
Müxbir hesabı:
AZ94NABZ0135010000000002594
S.W.I.F.T. BİK ATRAAZ22
"Bələdiyyə həyatı" qəzeti MMC
Hesab N_
AZ11ATRA40090048000000000064
VÖEN: 1001116461

Dizayner: Zaur ƏLİYEV

"Azərbaycan" nəşriyyatında çap olunub

Sifariş: 2276
Tiraj: 2000